


# MÜBARİZ KEŞİKDƏ

6 fevral 2020-ci il
Cümə axşamı

№ 5 (3470)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


*Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir.*

*Heydər Əliyev*

## PREZİDENT İLHAM ƏLİYEV POLAD BÜLBÜLOĞLUNA "HEYDƏR ƏLİYEV" ORDENİNİ TƏQDİM EDİB



Azərbaycan Prezidenti İlham Əliyev fevralın 3-də Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Polad Bülbüloğlunun "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb və mükafatı sahibinə təqdim edib.

## PREZİDENT İLHAM ƏLİYEV VASİF TALIBOVA "ŞƏRƏF" ORDENİNİ TƏQDİM EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.

Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə dövlətimizin başçısına məruzə etdi. O, 2019-cu ildə Naxçıvanda sosial-iqtisadi, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə qazanılan uğurlardan danışdı və bütün bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını dərin minnətdarlıq hissi ilə qeyd etdi.

Prezident İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə Vasif Talıbovu təbrik etdi. Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğulayaraq, prezidentlik dövründə 14 dəfə Naxçıvana səfər etməsini bu diqqətin təzahürü kimi dəyərləndirdi.

Bu ilin yanvar ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Vasif Talıbov 60 illik yubileyi münasibətilə "Şərəf" ordeni ilə təltif edilib. Bu gün Prezident İlham Əliyev "Şərəf" ordenini Vasif Talıbova təqdim etdi.



Vasif Talıbov onun fəaliyyətinə verilən yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

**Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.**

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Xalq artisti Əlibaba Məmmədovun 90 illik yubileyi və "Şərəf" ordeni alması münasibətilə paylaşım edib.***

***Ölkəmizin rəhbəri yanvarın 30-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı yanvarın 31-də Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Şahin Məhərrəm oğlu Əliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri yanvarın 31-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Azərbaycan və Dağıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə Maqomed Səidoviç Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Fevralın 1-də ölkəmizin rəhbəri yeni növ koronavirusun baş qaldırması nəticəsində vəfat edənlərlə əlaqədar Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə başsağlığı teleqramı göndərib.***

***Dövlətimizin başçısı fevralın 3-də Azərbaycanda elmin inkişafında xidmətlərinə görə Ramiz Mahmud oğlu Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri fevralın 4-də Xalq artisti Əlibaba Məmmədovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA POLAD BÜLBÜLOĞLUNU TƏBRİK EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bəstəkar, müğənni və ictimai xadim, Xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun 75 yaşının tamam olması və "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın "Instagram" səhifəsində yer alan təbrikdə deyilir:

"Azərbaycan Respublikasının Xalq artisti, ölkəmizin Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunu 75 illiyi və "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Polad Bülbüloğlu yaradıcılığı insanların qəlbini mehribanlıq, nəciblik, yenilməz ruh yüksəkliyi kimi hisslərlə əhatə edir. Qeyri-adi istedadı və tükənməz enerjisi ona zaman çərçivəsi ilə məhdudlaşmayan gözəl əsərlər yaratmağa imkan vermişdir. Onun mahnıları müxtəlif nəslin nümayən-



dələri tərəfindən çox sevilir.

Dost və pərəstişkarlarının sevgi və hörmətini qazanmış parlaq və istedadlı şəxsiyyət Polad Bülbüloğluna möhkəm cansağlığı, doğma və yaxınlarının əhatəsində firavan həyat arzulayıram".

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNDƏN

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Həməd Abdulla Xudeyri qəbul edib.**

Qonağı salamlayan nazir Səudiyyə Ərəbistanı Krallığının beynəlxalq təşkilatlarda hər zaman Azərbaycanı dəstəklədiyini məmnunluqla qeyd edərək dövlətlərimizin rəhbərləri arasında olan şəxsi dostluq münasibətlərinin, qarşılıqlı səfərlərin, yüksək səviyyədə imzalanmış sənədlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini, xüsusən son illər bu əlaqələrin dinamik şəkildə inkişaf etdiyini bildirib. Daha sonra qonağa mövcud kriminogen durum, daxili işlər orqanlarında həyata keçirilən islahatlar, sabitlik və əmin amanlığın qorunub saxlanılması üçün görülən işlər barədə qısa məlumat verilib.

Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının daxili işlər orqanları arasında-



kı əlaqələrə toxunan nazir Vilayət Eyvazov bu əməkdaşlığın 2018-ci il fevralın 19-da imzalanmış "Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol" və Beynəlxalq Kriminal Polis Təşkilatı (İNTERPOL) çərçivəsində həyata keçirildiyini diqqətə çatdırıb.

Cənab Həməd Abdulla Xudeyr səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, diplomatik fəaliyyəti dövründə paytaxt Bakı da daxil olmaqla ölkəmizin bütün bölgələrində hökm sürən stabillik, əmin amanlıq şəraitindən məmnun olduğunu deyib. Məhz təhlükəsizlik və sabitlik faktorlarının, ən müasir tələblərə cavab verən yeni infrastrukturların və xidmət sahələrinin yaradılması hesabına Azərbaycanın əcnəbilər üçün cəlbedici dövlətə çevrildiyini, nəticədə Səudiyyə Ərəbistanı Krallığından gələn turistlərin sayının ilbəil artdığını vurğulayan səfir bu işdə ölkə rəhbərliyinin və hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının danılmaz rolu olduğunu diqqətə çatdırıb, bundan sonrakı fəaliyyəti dövründə də əlaqələrimizin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Səmimilik və işgüzar şəraitdə keçən görüşdə təhlükəsizlik sahəsində əlaqələrin mövcud vəziyyəti, prioritet istiqamətləri barədə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2020-ci il fevral ayının 29-da Şirvan şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

*"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir."*

**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2020-ci il fevral ayının 22-də Bərdə rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

## DAXİLİ İŞLƏR ORQANLARI GÜCLƏNDİRİLMİŞ İŞ REJİMİNƏ KEÇƏCƏK

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov 2020-ci il fevral ayının 9-da Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar asayişin mühafizəsi üzrə əlavə tədbirlərə dair əmr imzalayıb.

Əmrə əsasən, Milli Məclisə növbədənkənar seçkilərin yüksək təhlükəsizlik şəraitində keçməsinin təmin edilməsi məqsədilə respublikanın daxili işlər orqanlarının şəxsi heyəti fevral ayının 8-dən 11-dək gücləndirilmiş iş rejimində xidmət aparacaq.

Seçki günü asayişin təmin edilməsi ilə əlaqədar olaraq ictimai yerlərdə post-patrul xidməti naryadlarının sayı artırılacaq, səsvermə bülletenlərinin aidiyyəti üzrə daşınması zamanı lazımi təhlükəsizlik tədbirləri görüləcək.

Əmrdə qeyd olunur ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 104-14-cü maddəsinə əsasən, səsvermədə seçici kimi iştiraketmə halları istisna edilməklə, polis əməkdaşının səsvermə zamanı seçki məntəqəsində olması qadağan edilir. Xüsusi geyim formasında olan polis əməkdaşı seçki məntəqəsinə yalnız məntəqə seçki komissiyasının qərarı və məntəqə seçki komissiyası sədrinin dəvəti əsasında ictimai asayişin bərpa edilməsi məqsədilə daxil ola bilər və asayiş bərpa olunduqdan sonra məntəqəni dərhal tərk etməlidir.



## GƏNCLİYƏ QAYĞI, GƏLƏCƏYİMİZƏ QAYĞIDIR

Ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olub. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşması, onların potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalandı. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Azərbaycan gəncinin tam hüquqlu vətəndaş kimi öz gələcəyinə sahib çıxması və ona göstərilən etimadı doğrultmağa çalışması üçün bütün şərait yaradıldı.

Ümummilli liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarix "Azərbaycan gəncləri günü" elan edilib.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi siyasətini davam və inkişaf etdirən dövlət başçımızın 2007-ci ili "Gənclər ili" elan etməsi gənclərə göstərdiyi qayğını əyani sübutudur. İndi müxtəlif sahələrdə aparıcı qüvvə kimi gənc nəsil iştirak edir.

Azərbaycan gəncliyinin önündə böyük qapılar, yollar açılıb. Tarixi milli-mənəvi dəyərlərimiz, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, eyni zamanda, ölkəmizin zəngin resursları gənclərimizin inkişafı üçün gözəl şərait yaradır. İndi əsas vəzifə gənclərin bu imkanlardan layiqincə yararlanıb, həm öz inkişafını təmin etmək, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışmasıdır.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

## MƏKTƏBLİLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB



Goranboy Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun 2 saylı orta məktəbində "Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına zərərli təsirləri", "Erkən nikah və onun fəsadları" mövzusunda görüş keçirilib. Tədbirdə RPŞ-nin əməkdaşları, rayon icra hakimiyyətinin, məktəbin müəllim və şagird kollektivi iştirak edib.

Goranboy RPŞ-nin rəisi, polis polkovniki Ramin Qədirov narkomaniyanın, narkotiklərin qanunsuz dövriyyəsinin yaratdığı problemlərdən, onların insanların sağlamlığı və genefondumuz üçün doğurduğu fəsadlardan bəhs edib. O, deyib ki, yeniyetmə və gənclərin zərərli vərdişlərə meyl göstərmələrinin qarşısını almaq üçün valideyn və müəllimlər onların asudə vaxtlarının səmərəli təşkilinə ciddi diqqət yetirməli, uşaqların elmə, idmana və təhsilə yönləndirilməsi istiqamətində davamlı iş aparmalıdırlar.



Bildirilib ki, erkən nikahlar ailə zorakılığının ən ağır formalarından biridir. Azərbaycan qadın və uşaq hüquqları ilə bağlı əksər konvensiyalara qoşulub və qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılıb. Deməli, erkən nikah bu konvensiyaların tələblərinə ziddir. Belə ki, erkən nikah həm azyaşlı ananın, həm də uşağın insan hüquqlarını kobud şəkildə pozur. Vurğulanıb ki, erkən yaşda qurulan evliliklərdə peşmanlıq, qəzəb, xəyal qırıqlığı kimi neqativ emosiyalar baş qaldırır. Aparılan araşdırmalarda uşaq yaşlarında ailə quran qadınların psixoloji sağlamlıqlarıyla bağlı problemlər yaşama riskinin 53 faiz olduğu müəyyənləşib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

*Eşqin Qasımov,*
*polis baş leytenantı*

## ETİMADI DOĞRULTMAQ ÜÇÜN



Gənclər günü ərəfəsində şəxsi heyətinin böyük əksəriyyəti gənclərdən ibarət olan "102 Xidməti-Zəng Mərkəzi"ndə çalışan əməkdaşlar haqqında yazı hazırlamağı düşünmüşdüm. Qarşılaşdığım bir hadisə ilə əlaqədar bu quruma müraciət edəsi oldum. Nəticə gözlədiyim kimi də oldu. Yaşadığım binanın zirzəmisindən su nasoslarını oğurlamağa cəhd edən iki nəfər hadisə yerinə gələn polis əməkdaşları tərəfindən saxlanılaraq aidiyyatı üzrə ərazi polis orqanına təhvil verildi.

Hər gün bu quruma ölkəmizin bütün bölgələrindən təqribən 4 min, müvafiq olaraq ayda 120 min, ildə isə 1 milyon 400 min müraciətlər daxil olur. Zəng edən insanlar da ən kritik məqamda onları yaxalayan çətinliklərinin, qarşılaşdıqları problemlərinin həllində kömək gözləyirlər. Bu həm də insanların polisə inamının təsdiqidir.

Qurumun rəhbərliyindən gənc əməkdaşlardan biri ilə həmsöhbət olmağı məsləhət bildilər. Polis serjantı Nigar Seyfullayeva 2017-ci ildən "102 Xidməti-Zəng Mərkəzi" sisteminin operatorudur. Qeyd etdi ki, sosial şəbəkələrdə daxili işlər orqanlarında xidmətə qəbulla bağlı verilən elanları izləyib və sənədlərini təqdim edib. Gözlədiyi kimi qəbul çox şəffaf və obyektiv keçirilib. Bu da ölkəmizdə gənclərə olan diqqətin və etimadın gözəl nümunəsidir. Xidmətə qəbul olunduqdan sonra işi öyrənmək üçün də diqqət və qayğı görüb. Deyir ki, müraciət edənləri səbr və təmkinlə dinləyib operativ və çevik reaksiya vermək, bir sözlə tapşırılan işin öhdəsindən gəlmək üçün əlindən gələni əsirgəmir.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

## BAŞ PROKURORLUQ VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATLARI



Yanvarın 29-da saat 18 radələrində 6 yaşlı Alsu Pikulo və 2 yaşlı Marat Pikulonun üzərində zorakılıq əlamətləri olan meyitlərinin, nənələri 1963-cü il təvəllüdlü Nina Allahverdiyevanın isə asılmış vəziyyətdə meyitinin birgə yaşadıqları paytaxtın Nizami rayonu, Rüstəmov küçəsi, 74 saylı evin 2-ci mərtəbəsində yerləşən 59-cu mənzilində aşkar olunması barədə daxil olmuş məlumat əsasında dərhal prokurorluq, polis və Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşları tərəfindən məhkəmə-tibbi ekspert briqadasının iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilmişdir.

Faktla bağlı Bakı şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7 (iki və ya daha çox şəxsi qəsdən öldürmə) və 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə) maddələri ilə cinayət işi başlanmışdır.

Cinayət işi üzrə prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmış, müvafiq ekspertizalar təyin edilmişdir.

Hadisə yerinə baxış zamanı mənzildə olan əşyaların yerbəyer olmaqla tamlıqlarının pozulmaması və mənzilin giriş qapısının içəri tərəfdən kilidli olması müəyyən edilmiş, eyni zamanda meyitlərə baxış zamanı boğulmağa xarakterik izlərdən başqa digər xəsarət və ya xəsarət izləri aşkar olunmamışdır.

İlkin istintaq fərziyyələri ilə Nina Allahverdiyevanın əvvəlcə nəvələrini kəndirlə boğaz nahiyələrindən boğmaqla öldürməsinə, daha sonra isə özünü kəndirlə asaraq intihar etməsinə əsaslı şübhələr yaranmışdır.

Hazırda cinayət işi üzrə bütün halların tam və hərtərəfli araşdırılması istiqamətində təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.



Fevralın 1-də itkin düşmüş Qusar rayonu Bədirqala kənd sakini, 2006-cı il təvəllüdlü Əmrah Əmrahovun axtarılıb tapılması istiqamətində həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində onun meyiti fevralın 3-də saat 16 radələrində yaşadığı evdən təxminən 1 km kənarda fərdi təsərrüfata aid sahədə yüksək gərginlikli transformator otağında aşkar edilmişdir.

Prokurorluq və polis əməkdaşları dərhal hadisə yeri və meyitə "Azərişıq" ASC-nin səlahiyyətli nümayəndələrinin, məhkəmə-tibbi ekspertinin iştirakı ilə baxış keçirmişdir.

İlkin məlumata görə mərhumun ölümünə səbəb elektrik cərəyanı vurması olmuşdur.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdır.

İş üzrə müvafiq ekspertizalar təyin olunmuş, şahidlər dindirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Hazırda cinayət işi üzrə bütün halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2020/2021-ci TƏDRİS İLİ ÜÇÜN DİN-in POLİS AKADEMİYASINDA "HÜQUQŞÜNASLIQ" İXTİSASI ÜZRƏ ƏYANİ TƏHSİLƏ KURSANTLARIN QƏBULUNA DAİR ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsil üzrə 175 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2020-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 27-dən mart ayının 1-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-95-05.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə, qaçış 100 metr məsafəyə – 17 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə) verməli, Nazirliyin seçmə komissiyasından, habelə Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən keçməlidirlər.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyasının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** internet saytında yerləşdiriləcək.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 14 sentyabr 2020-ci il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

## 2020/2021-ci TƏDRİS İLİ ÜÇÜN DİN-in POLİS AKADEMİYASINDA "İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ" İXTİSASI ÜZRƏ ƏYANİ TƏHSİLƏ KURSANTLARIN QƏBULUNA DAİR ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsilə 25 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından oğlanlar iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2020-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 27-dən mart ayının 1-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün

arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-99-82.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə) verməli, Nazirliyin seçmə komissiyasından, habelə Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən keçməlidirlər

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyasının iş vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcək.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı I ixtisas qrupunun fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 14 sentyabr 2020-ci il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "050615 - informasiya təhlükəsizliyi" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə, onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

# TƏLƏB AYDINDIR, VƏZİFƏ DƏ

**Bu gün vətəndaşların üzləşdiyi problemlərlə bağlı DİN rəhbərliyinə müraciət etmələri üçün geniş imkanlar yaradılıb. Polis təkcə "102" zəng xidməti ilə deyil, həm də sosial şəbəkə üzərindən hansısa bir məsələ ilə bağlı şikayət edən, müraciət ünvanlayan vətəndaşın köməyinə çatır.**

Elə bu günlərdə DİN-in "instagram" səhifəsində üzləşdiyi problemlə bağlı müraciət edən Cahid Abdullayevin şikayəti tərəfimizdən aidiyyatı üzrə ünvanlandı.

Bir neçə gündən sonra vətəndaş ona dəymiş ziyanın ödətdirilməsi ilə bağlı səhifəmizə minnətdarlıq məktubu göndərdi. O, Binəqədi RPİ-nin rəhbərliyinə və İstintaq şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirirdi.

Cahid Abdullayevin bu məktubu **RPİ-nin İstintaq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Müşfiq Qubadovla** söhbətimizə körpü oldu. Şöbə rəisi vətəndaş məmnunluğuna səbəb olan görülən işlərin çox olduğunu, zərəri ödəniləcək şəxsləri sevindirmək üçün əllərindən gələni edəcəklərini dedi.

**İşin istintaqını aparan baş müstəntiq, polis mayoru Orxan Səmədov** bildirdi ki, Cahid Abdullayev Bərdədə doğulub, böyüsə də Binəqədidə məskunlaşıb. Evi kiçik olduğu üçün əvvəllər Röya kimi tanıdığı ev alqı-satqısı ilə məşğul olan qadından ona geniş ev tapmasını xahiş edib və buna görə də əvvəlcədən 7 min manat verib. Aradan bir müddət keçdikdən sonra zərərçəkmiş pulunu istəyəndə Röya müxtəlif bəhanələrlə yayınıb. Cahid Abdullayev bu barədə 43-cü Polis Bölməsinə müraciət edib. Üzləşmə zamanı həmin xanım onu tanımadığını və pul almadığını deyib. Lakin araşdırmaların nəticəsi tam əksini sübut edib.



Araşdırma zamanı o da məlum olub ki, xanım "maklerin" əsl adı Röya yox, Əzimə imiş. Beləcə, Binəqədi RPİ-nin İstintaq şöbəsinin əməkdaşları Əzimənin "röya"sını çin çıxmağa qoymayıblar.

Qısa müddət ərzində o, aldığı pulu geri qaytarıb. İstintaqçılar daha bir nüansı da diqqətimizə çatdırdılar. Zərərçəkmiş ona ödədirilən pul ilə daha geniş ev almaq fikrindən vaz keçib, o pulu gözlərində problem yaranmış övladının əməliyyatı üçün xərcləyəcək.

"Uman yerdən küsərlər",- deyiblər. Ancaq polisdən kömək uman, ona arxalananlar isə küsmürlər, əksinə onlara qucaq açır, sevincini, kədərini bölüşürlər.

Polis polkovnik-leytenantı Müşfiq Qubadov onu da diqqətimizə çatdırdı ki, 2019-cu il ərzində istintaqı tamamlanmış cinayət işləri üzrə xüsusi mülkiyyətdə olan özgə əmlakına vurulmuş 2.029.190 manat zərərdən 1.954.739 manat, yəni 96,3 faiz ödənilib.

İçdiyi anda sadiqliyini daim nümayiş etdirmək, ondan kömək istəyən vətəndaşın güvənc yerinə çevrilmək üçün layiqli xidmət aparmaq daxili işlər orqanları əməkdaşlarının qarşısına DİN rəhbərliyi tərəfindən qoyulan tək və yeganə tələbdir.

Yeri gəlmişkən, ötən il respublikanın hüquq mühafizə orqanları tərəfindən 31.539 cinayət işindən 81 faizinin istintaqı daxili işlər orqanları müstəntiqləri tərəfindən aparılıb və vətəndaşlara dəymiş 52 milyon manatdan çox maddi ziyanın 92,7 faizi məhz istintaq zamanı ödətdirilib.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# DEMƏYƏ SÖZÜM VAR...

**Ömür də kitab kimidir. Oxunmayan səhifələri var. Bizə bəxşiş olaraq verilən ömür kitabına hansı sətirlərin yazıldığını, hansılarının daha oxunaqlı olduğunu, hansılarının isə oxunmamış qaldığını təəssüflər olsun ki, çox sonralar başa düşürük. Əsas odur ki, geriyə baxanda ötən günlər-itən günlər deyilmiş, deyəsən.**



O daxili işlər orqanlarında işlədiyi müddətdə peşəkarlığı, zəhmətsevərliyi və qayğıkeşliyi ilə seçilib.

Bu günlərdə ömrünün səksəninci onilliyini geridə qoyan, istefada olan daxili xidmət polkovniki Vaqif Kərimov 1940-cı ildə Balakən rayonunda doğulub. Uşaqlıq, yeniyetməlik illəri elə də asan keçməyib. Həm ali məktəbdə oxuyub, həm də işləyib. Düz 33 il daxili işlər orqanlarında qüsursuz xidmət edib. Biliyi və bacarığı, işinə məsuliyyəti ilə rəhbərliyin etimadını qazanıb. Son iş yeri DİN-in Maliyyə Plan İdarəsinin rəis müavini vəzifəsi olub. 1996-cı ildə təqaüdə çıxıb.

Yubileyi ərəfəsində görüşdük. İllər ahıl həmkarımızın saçlarını ağartsa da, qəddi-qaməti əyilməyib. Hal-əhval tutduqdan sonra ilk sözü o oldu ki, hər şey insanın öz əlindədir, sadəcə çalışmaq və işinə məsuliyyətlə yanaşmaq lazımdır. Səsində bir kövrəklik olsa da, şövqlə danışdı öz həyat hekayəsini. Həyatından razıdır. DİO-da xidmət etdiyi illəri ömrünün ən dəyərli dövrü sayır.

Çətinlikdən qorxmayasan gərək,-deyir hörmətli veteranımız. DİN kimi mürəkkəb və ciddi dövlət orqanında işləmək çətin və məsuliyyətlidir. Amma zəhmətinin, qabiliyyətinin bəhrəsini gördükdə daha həvəslə çalışırsan.

Söhbət əsnasında ağsaqqal həmkarımız gənclərə tövsiyələrini çatdırmağımızı xahiş etdi. Dedi ki, gənc əməkdaşlar indi daha səylə və məsuliyyətlə çalışmalı, dünyagörüşlərinin və peşəkarlıqlarının artırılması qeydinə qalmalı, bu yolda ağsaqqal həmkarlarının da bilik və bacarıqlarından yararlanmalıdırlar.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Polisə hücum etmişdi

Yanvarın 31-də saat 10:00 radələrində Bakı-Qazax-Gürcüstan sərhədi yolunun paytaxtın Qaradağ rayonu ərazisindən keçən 68-ci kilometrliyində qabaq şüşəsinə sayrışan işıqlar quraşdırıldığına görə YPX inspektorları tərəfindən saxlanılan "Reanault Tondar" markalı, 99-UD-071 dövlət qeydiyyat nişanlı minik avtomobilinin sürücüsü, Bakı şəhər sakini M.Seyidzadə əməkdaşların qanuni tələblərinə qəsdən tabe olmayaraq əlindəki bıçaqla polis əməkdaşına xəsarət yetirməyə cəhd edib. Lakin YPX inspektoru, polis baş serjantı Anar İbrahimovun cəld hərəkəti və çevikliyi nəticəsində həmin şəxs zərərsizləşdirilərək istifadə etmək istədiyi soyuq silahla birlikdə istintaq orqanlarına təhvil verilib.

*Natiq Cavadov,*
*polis mayoru*

# O ARZULARINA ZƏHMƏTLƏ ÇATIB

**Hər bir xalqın parlaq gələcəyi üçün onun, sağlam gəncliyinin olması vacib şərtdir. Ölkəmizdə gənclər siyasəti, bu sahədə görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onu daha da irəliyə aparır.**



Bu uğurlu siyasət daxili işlər orqanlarından da yan keçməyib. DİN-in Polis Akademiyasının, Daxili Qoşunların Ali Hərbi Məktəbinin və A.N.Heydərov adına Siravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbinin kursantlarının böyük əksəriyyəti təhsillərini bitirdikdən sonra Vətənə, dövlətə sədaqətlə xidmət edir, peşə andlarına sadiqlik nümayiş etdirirlər. Onlar təkcə cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında deyil, cəmiyyətin bir çox sahələrində uğurlar qazanır, möhtəşəm idman arenalarında bayrağımızı yüksəklərə qaldırırlar.

Sevindirici haldır ki, belə gənclərə DİN-nin bütün strukturlarında rast gəlmək mümkündür.

Onunla dəfələrlə telefonla danışmışdım. Amma yaxından tanış olmaq imkanı Göygöl Rayon Polis Şöbəsinə budəfəki ezamiyyətim zamanı nəsib oldu. RPŞ rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi Abbas Paşa Gəncədə ziyalı ailəsində anadan olub. 2002-ci ildə Azərbaycan Texnologiya Unuversitetini, daha sonra magistr pilləsini fərqlənmə diplomu ilə başa vurub.

Hərbi xidmətdən sonra bir müddət öz ixtisası üzrə işləyib. Polis olmaq, onun şərəfli mundirini geyinmək arzusuna 2009-cu ildə çatıb. Samux RPŞ-nin KTQ-nun baş inspektor-kriminalisti vəzifəsinə təyin olunub və "polis leytenantı" xüsusi rütbəsi alıb. 2015-ci ildə DİN-in Polis Akademiyasına bitirib, Ağsu RPŞ-nin KQ-nun kadr və peşə hazırlığı üzrə baş inspektoru vəzifəsinə təyin olunub. Daha sonra xidmət yeri Göygöl RPŞ-yə dəyişdirilib. A.Paşa bir müddət İTB-nin YYÇPİTQ-nun baş inspektoru, CAB-nin əməliyyat müvəkkili kimi xidmətini davam etdirib. Gənc və bacarıqlı polis zabiti kimi xarakterizə olunan həmkarımız 2019-cu ilin fevral ayından şöbə rəisinin ŞHİÜ-köməkçisi vəzifəsinə irəli çəkilib. Xidmət etdiyi illər ərzində DİN və RPŞ rəhbərliyi tərəfindən ümumilikdə 20-dən çox müxtəlif mükafata layiq görülüb.

Gənc həmkarımın şəxsi heyət arasında böyük nüfuzunu görüb sevindim. Yeri gəlmişkən, Şöbə rəisi, polis polkovniki Müqalib Abdıyev də onu müsbət xarakterizə etdi, daima öz üzərində çalışmasını, gənc olmasına baxmayaraq çoxlarına nümunə olduğunu dedi.

Barəsində daha bir şad xəbər eşitdim. Ötən il xidmətdə əldə etdiyi uğurlu nəticələrə görə DİN rəhbərliyinin əmri ilə mükafat qaydasında Abbas Paşayeva vaxtından əvvəl polis "polkovnik-leytenantı" xüsusi rütbəsi verilib.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*



# GƏNCLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ YARIŞ KEÇİRİLİB

**Fevralın 2-də Azərbaycanda Gənclər Günü münasibətilə DİN-nin İdman Cəmiyyətində kikboksinq üzrə açıq birincilik keçirilib.**

Yarışın əvvəlində çıxış edənlər idmançıları Gənclər Günü mübasibətilə təbrik edərək onlara uğurlar arzulayıblar. Qeyd olunub ki, ölkəmizdə gənclərə və idmanın inkişafına göstərilən diqqət və qayğı nəticəsində bu gün Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. İdmançılarımız beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər.

Yarışda respublikamızın müxtəlif bölgə və rayonlarından gəlmiş 11 komanda, 220-dən çox uşaq, yeniyetmə və gənclər güclərini sınayıblar.

DİN İdman cəmiyyətinin yetirməsi, kikboksinq üzrə milli komandanın kapitanı, Dünya çempionu Ramal Aslanov, Avropa və dünya çempionları Elnur Həmidov, Məhəmməd İmanov qaliblərə mükafatları təqdim ediblər.

Bu yarışda ümumi komanda hesabında birinciliyi İdman Cəmiyyətinin yetirmələri qazanıb.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# ELAN

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, nazirliyin müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcək.

İştirak etmək istəyən şəxslər 2020-ci ilin yanvar ayının 21-dən fevral ayının 21-dək **mia.gov.az/?/az/content/29779/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45; (012)-590-92-37; (012)-590-97-52.**

***Azərbaycan Respublikasının***
***Daxili İşlər Nazirliyi***

# SİLAHLI ŞƏXSLƏR SAXLANILIBLAR

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində növbəti əməliyyat tədbirləri həyata keçirilib.** Daxil olmuş məlumat əsasında keçirilən təxirəsalınmaz əməliyyat nəticəsində paytaxt sakini Nicat Nəsirov tutularaq istintaqa təqdim edilib. Onun idarə etdiyi "Daewoo Gentra" markalı avtomobilə baxış zamanı sandıqçasında 6 ədəd patron olan 1 ədəd "Steçkin" markalı tapança və 1 ədəd pnevmatik tapança aşkar olunaraq götürülüb.

Baş İdarə əməkdaşlarının keçirdikləri növbəti əməliyyat zamanı Xəzər rayonu Türkan qəsəbəsində, əvvəllər məhkum olunmuş Samir Mayılov tutulub. Onun üzərində şəxsi axtarış aparılan zaman 1 ədəd "Makarov" markalı tapança və 1 ədəd patron aşkar olunaraq götürülüb.

Saxlanılan şəxslər ifadələrində odlu silah-sursatın onlara məxsus olduğunu və polisə könüllü təhvil vermək əvəzinə üzərlərində gəzdirdiklərini etiraf ediblər.

*Anar Qafarov,*
*polis baş leytenantı*



# ÖZGƏ MALINA TAMAH SALMIŞDILAR

**İmişli rayon sakini Röyal Qasımov yanvarın 3-də Rayon Polis Şöbəsinə ərizə ilə müraciət edərək ona məxsus 22 baş xırdabuynuzlu heyvanın oğurlandığını bildirib.**

Aparılan araşdırmalar zamanı fakt öz təsdiqini tapıb və əməliyyat-axtarış tədbirləri ilə oğurluğu törətməkdə şübhəli bilinən rayon sakinləri, əvvəllər məhkum olunmuş İlkin Hüseynov, Fəxri Gözəlov, Zaur Yadigarov saxlanılıblar.

Saxlanılarkən onlar törətdikləri cinayət əməlini etiraf ediblər. Oğurlanan xırdabuynuzlu heyvanların müəyyən bir qismi maddi sübut kimi götürülərək sahibinə təhvil verilib.

Ətraflarında aparılan araşdırmalar nəticəsində həmin şəxslərin digər cinayət əməlində də iştirakı aşkarlanıb. Belə ki, saxlanılan şəxslərin ötən il noyabr ayının 21-də vətəndaşa məxsus 2 baş iribuynuzlu heyvanı oğurladığı da məlum olub.

*Toğrul Nəsirli,*
*polis baş leytenantı*

# UCA DAĞ BAŞINDA...



Qax rayonunun Sarıbaş kəndi ölkəmizin ən ucqar 3 kəndindən biridir. Hər tərəfi hündür dağlarla əhatə olunan kənd açıq səma altında muzeyi xatırladır. Əsrlər keçsə də hər qayasında, hər daşında tarixlərin izi qalıb. Mənbələr tarixi şəxsiyyətlərin buradan gəlib keçdiklərindən xəbər verir.

Dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən Sarıbaşa xüsusilə də qış aylarında gediş-gəliş o qədər də asan deyil. Kənddə hazırda 11 ailə yaşayır. Son vaxtlar bura turistlərin sevimli məkanlarından birinə çevrilir. Qax Rayon Polis Şöbəsinin əməkdaşları iqlimdən asılı olmayaraq ilin hər fəslində burada xidmət aparır. Sahə rəisi, polis mayoru Natiq Abbasov və polis nəfəri Aqşin Məhyəddinov burada yaşayan sakinlərlə görüşür, onların müraciətlərini dinləyir, problemlərinin aradan qaldırılmasına kömək edirlər. Polis əməkdaşları yağışdan, borandan çəkinmədən öz vəzifə borclarını sevə-sevə yerinə yetirdiklərini bildirirlər.



*Mahir Məsimov,*
*polis baş leytenantı*

# Yanvar ayının 29-dan fevralın 4-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 237 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 93 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 229, o cümlədən borclu şəxs qismində axtarışda olan 140 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 10 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 155 fakt müəyyən edilmişdir.




Misirin Sosial Həmrəylik naziri xanım Qada Vali BMT-nin Narkotiklərə və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) baş direktoru təyin edilib.

Misir Prezidenti Əbdülfəttah əs-Sisi bu münasibətlə Qada Valini qəbul edib. Dövlət başçısı Qahirənin narkotiklərin qanunsuz dövriyyəsi və cinayətkarlıqla mübarizəyə böyük əhəmiyyət verdiyini, bu sahədə BMT-nin müvafiq strukturları ilə sıx əməkdaşlıq etdiyini qeyd edib.

BMT-nin Baş katibi Antonio Quterreş hələ ötən ilin noyabrında Qada Valinin UNODC-un baş direktoru təyin ediləcəyini bəyan etmişdi. Misirin sabiq naziri həm də BMT-nin Vyanadakı ofisinə rəhbərlik edəcək. O, bu vəzifədə Rusiyanın nümayəndəsi Yuri Fedotovu əvəzləyəcək edəcək.

*****

***Rusiya vətəndaşlarına yeni – elektron pasportlar veriləcək. Bu barədə Rusiya Daxili İşlər Nazirliyinin Miqrasiya Məsələləri üzrə Baş İdarəsinin rəisi Valentina Kazakova jurnalistlərə məlumat verib. O deyib ki, bank kartını xatırladacaq yeni pasportlarda vətəndaşların adı, soyadı, ata adı, doğum tarixi və yeri qeyd olunacaq. Yeni pasportlara quraşdırılacaq çiplərdə barmaq izləri və digər məlumatlar yerləşdiriləcək.***

***Köhnə pasportların yeniləri ilə əvəzlənməsi prosesi tədricən həyata keçiriləcək. Yeni pasportların bu ilin iyulundan verilməsinə başlanacağı ehtimal edilir.***

*****

Türkiyədə yanvarın 24-də baş vermiş zəlzələ ilə əlaqədar sosial mediada təxribat xarakterli paylaşım etməkdə şübhəli bilinən iki nəfər saxlanılıb. Bu barədə ölkənin Baş Prokurorluğu məlumat yayıb. Məlumata əsasən, bu istiqamətdə araşdırmalar davam etdirilir.

*****

***Ötən il İran polisinin həyata keçirdiyi əməliyyatlar nəticəsində 814 ton narkotik vasitə müsadirə edilib. İl ərzində 2319 nəfər narkotik vasitələrin qaçaqmalçılığı və satışı ilə məşğul olduğuna görə həbs olunub, 1886 qruplaşma məhv edilib.***

***Rəsmi Tehran Əfqanıstan ilə sərhəddə ciddi tədbirlər görsə də, qaçaqmalçılar əməllərindən əl çəkmirlər. Bəzi hallarda qaçaqmalçılarla sərhədçilər və polis arasında silahlı toqquşma baş verir. Bu toqquşmalarda 4 mindən çox İran sərhədçisi və polisi şəhid olub.***

*****

Türkiyənin Bursa şəhərində polis əməkdaşları tərəfindən qədim "Tövrat" kitabı ələ keçirilib. Ceyran dərisi üzərində yazılmış kitab 2,5 milyon dollar dəyərində qiymətləndirilib. Dini əsər satılmaq üzrə olarkən ələ keçirilib. Faktla bağlı bir nəfər saxlanılıb.

*Natiq Cavadov*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.954

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik